# QÖNÇƏ

*(Hekayə)*

**Həftənin son iş günü olduğundan bu gün banka müraciət edənlərin sayı əvvəlki günlərə nisbətən xeyli çox idi. Bütün bunlara baxmayaraq bankın əməkdaşları hamını səbrlə dinləyir, növbə ilə vətəndaşların xidmətində durur və nəzakətlə də onları yola salırdılar. İş saatının sonuna yaxın qızların üzlərindən yorğun olmaları görünürdü. Buna baxmayaraq hamısının gözlərində bir sevinc qığılcımı da sezilirdi. Axı, qarşıda onları şənbə-bazar gününün ləzzəti gözləyirdi. İşin sonunda iş yerlərini səliqəyə salan qızlar bir-biri ilə zarafatlar edərək, istirahətlərini harada və necə, ən əsası isə kiminlə keçirəcəkləri haqda planlarının proqnozlarını verib gülüşür və bununlada bir həftə ərzində toplanan iş yorğunluğunun stresini çıxarmağa çalışırdılar. Onların arasında iş saatının sona çatmasına baxmayaraq yerindən qalxmağa tələsməyən təkcə Qönçə idi.**

...Qönçə universiteti qurtaran ildən bu bankda işə düzəlmiş, işinin öhdəsindən bacarıqla gəldiyindən elə ilk aylardan həmişə rəhbərliyin hörmət və rəğbətini qazanmışdır. Zəhmətkeşliyi, pozitiv aurası ilə bir çox iş yoldaşlarından fərqlənən Qönçə, həm də mehriban xasiyyəti ilə də hamının sevimlisi olmağı bacarmışdı. Simaca həm gözəl, həm də gülərüz olan Qönçənin gözlərindən həmişə sevinc yağırdı. İş günün başa çatmasından sonra bir fincan qəhvə içmək üçün bankın yaxınlığındakı kafeyə yığılan qızların, hərəyə bir qəhvə sifariş verərək danışıb-gülmələri illər idi ki, artıq bir ənənə halını almışdı. Banka işə düzəldiyi gündən subay qızların bu gözəl təşəbbüsünə məmnunuiyyətlə qoşulan Qönçə, artıq iki il idi ki, ailə qurduqdan sonra iş gününün başa çatması ilə hamıdan əvvəl evə getməyə tələsirdi. Bu iki il ərzində onun gözlərindəki parlaqlığın yavaş-yavaş azalması, onun yerinə qəmin-kədərin gündən-günə artması da iş yoldaşlarının gözündən yayınmırdı. Özü haqda heç nə danışmırdı deyə, qızlar da ondan nə isə soruşmaq, bununla da onun gizli ağrılarını bir daha ona yaşatmamaq üçün sadəcə susurdular. Son aylar isə həmişə gülərüz olan Qönçənin üzündəki gülüş nədənsə birdəfəlik yoxa çıxmışdı.

O, bu gün iş saatının başa çatmasına baxmayaraq, nədənsə evə getmək üçün həmişəki kimi tələsmir, yerində sakitcə əyləşərək dinməzcə mobil telefondan ona boylanan körpə oğlunun məsum çöhrəsinə tamaşa edirdi. Bir neçə dəqiqə baxıb telefonunu çantasına qoyan Qönçə, iş masasının üstünü səliqəyə saldıqdan sonra, çantasını götürüb sakit və bir az da yorğun səslə qızlara, - Salamat qalın qızlar, mən getdim, -deyərək çıxışa doğru addımladı. İş yoldaşı olan, dilli-dilavərliyi ilə digər qızlardan fərqlənən əməliyyatçı Ülkər onun arxasınca, - Sağ olun, Qönçə xanım. Sizə xoş istirahətlər, bazar ertəsi görüşənədək! - dilləndi və yenidən əlindəki telefonuna gələn yeni mesajları oxumağa başladı.

Bankın çıxışna çatan Qönçə qapının tutacağını özünə tərəf çəkib, Ülkərə cavab vermək üçün bir anlıq geri çevrildi, qızların şəkllərini çəkirmiş kimi gözlərini hər birinin üzərindən keçirtdi. Ən sonda gözünü Ülkərin üzündə saxlayaraq xəfifcə gülümsədi və əlini əzacıq qldıraraq sakitcə xüdafisləşib, qapıdan çıxdı.

**Həmişəki kimi hava azacıq küləkli idi. Bakıda anadan olan Qönçə hələ uşaqlıqdan valideyinləri ilə belə havalarda dalğalı Xəzəri seyr etmək üçün tez-tez bulvara gəlməyi çox sevirdi. Dəniz havası atasının xəstəliyinin şiddətlənməsinin qarşısını alırdı deyə, onlar saatlarla bulvar boyu gəzişməyi həm də həkim proseduru kimi diqqətdə saxlayırdılar. Atasının vəfatından sonra isə onların bu xoşbəxt gəzintisi də başa çatdı. Ailə qayğıları anasının üzərində olduğundan, bulvara çıxmağa onlarda həvəs də qalmamışdı. Atasından sonra anasının da günü-gündən şam kimi əriməsini Qönçə də gördü. Anası Qumru xanım son günlər mədəsindəki ağrılardan qızı Qönçəyə heç nə demir, hətta ailə qurub şəhərin ayrı-ayrı tərəflərində xoşbəxt yaşayan digər iki qızlarından da səhhətində baş verən dəyişikliyi gizlədirdi. Onu indi tək Qönçənin gələcək həyatı narahat edirdi. Qönçə isə ailə qurmağa tələsmir, işini sevdiyindən koryera haqqında düşünürdü...**

Qönçə bankın binasından çıxıb tələsmədən avtobus dayanacağına doğru addımladı. Dayanacaqda heç kim olmadığından oturacaqlar boş idi. Hara gedəcəyinə hələ qərar vermədiyindən dəmir oturacaqda əyləşdi. Yorulmuşdu, çox yorulmuşdu deyə, dəmir oturacağın soyuqluğunu da hiss etmirdi. Amma onu yoran əsla sevdiyi işinin çoxluğu deyildi.O, mənəvi cəhətdən yorulmuşdu. Son günlər artıq hər şeydən yorulduğunu, uğursuz qurduğu ailə həyatından belə yorulduğunu, bezdiyini ürəyində özüözünə söyləməkdən, sonra da özünü sakitləşdirməkdən yorulmuşdu. Axı, nədən, niyə və nə üçün laiq olmadığı bu həyat onun qismətinə yazılmışdı?! Axı o da xoşbəxt olmaq, aurası gözəl olacaq bir ailənin xanımı olmaq ümidi ilə anasının arzusunu nəzərə alıb, onun təkidi ilə ailə qurmuşdu. Lakin onun sevgisinə layiq olmayan bir insanla yaşamaq çox çətin gəlirdi ona. O, çəkdiyi mənəvi əzablardan nə anasına, nə də ki bacılarına heç vaxt şikayət eləməzdi və hətta həmişə onların yanında özünü xoşbəxt olan kimi göstərməyə cəhd edirdi. Amma artıq dözə bilmədiyini, anasına deməyin vaxtı çatdığını düşündü. Lakin hər çətin anında güvənə biləcəyi anasının artıq iki il bundan qabaq dünyasını dəyişməsini xatırlayanda süstləşdi. Yanağından süzülən iki damcı yaş yaxalığına töküldü. Bədənindən soyuq tərin necə axdığını hiss eləyib ayağa qalxdı. Anasının boynunu qucaqlayaraq ona öz dərdini danışmağının, ondan bir məsləhət, kömək istəməyinin artıq gec olduğunu, köməksiz qaldığını sanki indi anlayaraq öz-özünə pıçıldadı: - Anam yoxdursa da, qovuşmağa doğma Xəzərim var! - deyib, dayanacağa doğru yaxınlaşan avtobusa tərəf addımladı.



Hava azacıq küləkli və bir azacıq da soyuq idi. Yəqin elə bu hava şəraitindən idi ki, bulvarda adamlar həmişəkindən az gözə dəyirdi. Yaxın oturacaqların birində heç kimə məhəl qoymadan bir-birinə sarılan iki gənc oğlanla qız, onlardan bir az aralıda yerləşən oturacaqda isə nəvəsi ilə əyləşən yaşlı nənədən başqa yaxınlıqda heç kim gözə dəymirdi. Bulvarın işıqlandırılması da bu gün elə bil buna cavabdeh olan şəxslərin yadından çıxmışdı. Amma projektor kimi yerə tuşlanan Ayın işığı kifayət qədər ətrafa işıq saçırdı.

**Qönçə yaxınlıqda olan oturacaqlarda əyləşən insanlara məhəl qoymadan bulvarın daş məhəcərinə yaxınlaşdı. Dəniz qaranlıqda çox möhtəşəm və həm də vahiməli görünürdü. Dalğalar sanki özlərini bulvar boyu tikilmiş daş hasarlara vurub, sahilə çıxmağa can atırdılar. Qönçə əl çantasını daş hasarın üstünə qoydu, əynindəki nazik gödəkçəsini çıxardıb onu da məhəcərin üstünə aşırdı. Sakit halda əllərini qoynunda çarpazlaşdırıb, gözünü üzaqlara dikərək nəsə fikrə getdi.Belə soyuq havada nə qədər beləcə dayandığını xatırlamırdı. Daş məhəcərin üstü ilə adımlayan balaca oğlanın, - Nənə, əlimdən bərk tut, yoxsa dənizə yıxılaram! - deməsi, onu sanki yuxudan ayıltdı.Qönçə çaşqın halda ətrafı nəzərdən keçirtdi. Nə üçün və nəyə görə bura gəldiyini indi dərk edib, tələsik gödəkçəsini əyninə taxdı, çantasını götürüb iti addımlarla dayanacağa tərəf addımladı. Qönçə anasının ölümündən sonra dünyaya gələn körpəsini - həyatının tək mənası olan Muxtarını köksünə sıxmaq üçün evə tələsirdi.**

**Arif ƏRŞAD, Yazıçı-publisist, Prezident mükafatçısı**

Azad Azərbaycan.- 2023- cü il.- 2 fevral.- S. 4.